AZƏRBAYCAN ORDUSU

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür*

# Zəfər ilinin Həmrəylik Günü



*2016-cı ilin aprelində də, 2020-ci ilin iyulunda da atəşkəs böyük təxribatçılıq missiyası ilə pozulmuşdu. Azərbaycanın ordu hissələri bu təxribatların qarşısını qətiyyətlə almışdı. Aprel döyüşlərində düşmən min hektarlarla ərazidən çıxarılmışdı. Düşmən 2020-ci il sentyabrın 27-də də Azərbaycan ərazisində böyük təxribat törətmək istədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün xalqa müraciətində dedi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var".*

2020-ci il sentyabın 27-də Ermənistan silahlı birləşmələrinin növbəti təxribatının - hücumunun qarşısı qətiyyətlə alındı, Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!". Ali Baş Komandanın müharibənin xarakterini ictimaiyyətə bildirməsi xalqın müharibədə iştirakına vəsilə oldu.

Vətən müharibəsi başladı. Xalq-ordu münasibətləri əvvəlki illərlə, aylarla müqayisədə nəzərəçarpacaq dərəcədə yüksəldi. Döyüşən ordu sıralarında olmaq üçün minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinə müraciət etdi. Qismən səfərbərliyə görə onların hamısının istəyi yerinə yetirilmədi. Xalq döyüşən orduya yüksək səviyyədə mənəvi dəstək göstərdi. Azərbaycan Ordusu yüksək təminata malikdir. Buna baxmayaraq, döyüşlər getdiyi müddətdə analar döyüşənlərimizə ana qayğısı göstərirdi: yun gödəkçələr, isti corablar, boğaz şalları toxuyub göndərirdi. 44 gün döyüşlər gedən əraziyə yüzlərlə maşın ərzaq göndərildi. İctimaiyyət bunu mənəvi borc kimi edirdi. Bu, döyüşlərin gedişinə də təsir göstərdi, əsgər və zabitlərin döyüş əzmini də, qələbə ruhunu da yüksəltdi. Döyüşlər getdiyi vaxtlarda döyüşçülərdən biri demişdi: "Çağırışla döyüşə gedəndə yol boyu bizi uğurlayanları gördük, onların sırasında azyaşlı uşaqlar da var idi, qocalar da, əlillər də. Bu, bizim timsalımızda döyüşən ordunun qələbə ruhunu yüksəltdi. Ali Baş Komandanın əmrini qələbə ilə tamamlamaq üçün qətiyyətlə döyüşürük...". Bu kəlmələr dəstəyə görə xalqa minnətdarlıq deməkdir. Hamı döyüşənləri uğurlayanları ictimaiyyətin nümayəndələri bildiyindən 44 gün çəkən Vətən müharibəsi xalqla ordunun sarsılmaz birliyi kimi yaşanıldı.

Döyüşlərdən uzaqda olsa da, hər bir azərbaycanlı gənc özünü döyüşlərdə hiss edirdi.

Vətən müharibəsində hər bir vətəndaşın qələbəyə inamı olsa da, döyüşləri qələbə qazanılacağına əminliklə yaşasa da, narahatlığı sovuşmur. Hamı televiziyada verilişlərə, süjetlərə bu ovqatla baxırdı. Zabitlər döyüşçülərin döyüş hazırlığından da danışırdılar, mənəvi kamilliyindən də. Döyüşçülər özləri haqqında deyil, döyüşçü yoldaşları haqqında danışırdılar. Dünya azərbaycanlıları döyüşçünün anasının "Vətən olmayandan sonra mən nəyə lazımam, məğlub oğul nəyə lazımdı..." kəlmələrini döyüşənlərə Ana öyüdü bilirdi. Şəhid anası əlini çağırış yaşına çatmamış oğlunun çiyninə qoyaraq, "Qardaşını bu oğlum əvəzləyəcək!" demişdi, baxışları naməlumluğa dikilmişdi. O naməlumluqda döyüşlər gedirdi, Azərbaycan əsgəri qələbələr qazanırdı. Şəhid anası döyüşlər gedən o naməlumluğa hələ hərbi xidmət yaşına çatmamış oğlunu da döyüşənlərin sırasında görmək niyyətiylə baxırdı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi kəlmələr hər birimizi qürurlandırdı: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!". Bu il Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü Zəfər ilinin qüruru kimi qarşılayırıq. Qalib ordumuzun qalib hərbçilərini həm Zəfər ili, həm Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, həm də Yeni il münasibətilə təbrik edirəm.

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

*Hər tarixi günün öz mahiyyəti var. Belə günlər xalqla, dövlətlə, dövlətçiliklə bağlı olduğuna görə cəmiyyətin ovqatını müəyyənləşdirir. Cəmiyyət ictimaiyyət deməkdir, yəni, ictimaiyyət tarixi günləri təkcə tarix kimi deyil, həm də sabahların daha nurlu olması niyyətiylə, inamıyla qeyd edir. 2020-ci il 100 illik yubileyi 2018-ci ildə qeyd edilən ordumuzun ilidir. Ordumuzun adına ad olan ili ictimaiyyət həmişə böyük sevgilərlə xatırlayacaq.*

*31 Dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi, həm də Yeni il kimi qeyd edirdik. Bu il bu iki bayram Zəfər ili ovqatı ilə qeyd ediləcək. Bu il torpaqlarımız işğaldan azad edildi, 28 il çəkən intizara son qoyuldu, köçkünlər el-obasına qayıdacaq.*

Təqvim ili başa çatmaqdadı. Bir neçə gündən sonra 2020-ci ilin son anlarını yaşayacağıq, 2020-ci ilə müraciətlə "Sən tarixdə Zəfər ili kimi qalacaqsan!" deyəcəyik. 2021-ci ili "Sən tarixdə köçkünlərin el-obasına dönüşü ili kimi qalacaqsan!" deyəcəyik...

Hər ötən ili yaşanılmış aylar bilirik. İlin sonunda yaşanılmış aylara görə olmuşları xatırlayırıq. 2020-ci il həmişə Zəfər ili kimi xatırlanacaq. Nənələr nəvələrinə nağıl qəhrəmanlarından deyil, Vətən müharibəsinin qəhrəmanlarından danışacaqlar. Noyabrın 8-i əbədiyyən Zəfər günü kimi qeyd ediləcəkdir. Müasir gənclik də 2020-ci ili bu baxımdan ruhumuzun ili bilirik. Xalq 28 ildi belə il (2020-ci il), belə gün (8 noyabr) arzulayırdı. Tərəddüd etmədən 2020-ci ilə son 100 ilin ən gözəli, 8 noyabra günlərin ən gözəli deyirəm...

Azərbaycanda ordu quruculuğu həmişə dövlət üçün prioritet olub. Müxtəlif təyinatlı beynəlxalq təlimlər, ordudaxili təlimlər, ordunun silahlanmasına daxil edilən ən müasir döyüş texnikaları, uçuş aparatları, hərbi qulluqçuların onların istismar xüsusiyyətlərini tam mənimsəməsi şəxsi heyətin döyüş hazırlığını yüksəltdi. Bu yüksəlişin nəticəsidir ki, Azərbaycan Ordusu dünyada ən güclü ordular sırasındadır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ön xətdə, səngərlərdə əsgər və zabitlərlə görüşməsi, onlara tövsiyələr verməsi, xidmətdə fərqlənənləri təltif etməsi şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltmişdi. Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmrini qələbə ilə tamamlamağa - torpaqlarımızı işğaldan azad etməyə qadir idi. O illərdə hərbi xidmətdən tərxis edilən əsgərlərin hamısı "Torpaqlarımızı işğaldan azad edəcək döyüşlərdə iştirak edə bilmədim..." təəssüfünü yaşayırdı.

2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun hissələri Ermənistan silahlı birləşmələrinin hücumunun qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın əmriylə əks-hücum əməliyyatı başladı. Bu əməliyyat Vətən müharibəsi kimi davam etdirildi.

Sentyabrın 27-dən noyabrın 9-na kimi döyüşlər getdi. 44 gün davam edən Vətən müharibəsində minlərlə gənc, Birinci Qarabağ müharibəsi veteranı döyüşlərdə iştirak etmək üçün müraciət etmişdi. Bu, ictimaiyyətin Vətən müharibəsində iştirak etmək istəyi, işğalı sonlandırmaq niyyəti idi. Döyüşçülər bunu bilirdi, daha əzmlə döyüşürdü. Döyüşlərin ilk günlərində Ermənistan hərbi birləşmələrinin müdafiə səddi darmadağın edildi. Bu, Azərbaycan Ordusunun qələbələrinin başlanğıcı oldu. Suqovuşan, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı işğaldan azad edildi. İctimaiyyət Ali Baş Komandanın xalqa müraciətini böyük istəklərlə gözləyirdi. Hər müraciət bir şəhərin azad edilməsi xəbəri idi. Bu xəbərlər işğalın sonunun yaxınlaşdığını bildirirdi.

Biz gənclər də ictimaiyyətin bir hissəsi olaraq Suqovuşanın ermənisizləşdirilməsini qələbələrimizin gözəl başlanğıcı bildik. Onda izlədiyimiz kadrlar ürəyimizi dağa döndərirdi. Azərbaycan əsgərinin şücaətini görürdük, Vətən sevgisini görürdük, dövlətə, dövlətçiliyə sədaqətini görürdük...

Nisbətən yüngül yaralanmış döyüşçü ağır yaralanmış döyüşçünü təhlükəsiz yerə aparanda yenidən yaralanıb, şəhid olub. Vətən müharibəsində neçə-neçə belə döyüş anları olub. Yəni, Azərbaycan əsgəri üçün Vətənə görə, Qələbəyə görə bütün gərgin anlar mənəvi kamillik kimi yaşanılırdı. Yaralı döyüşçüyə xitabən deyilən "Səni ölümdən xilas edəcəm" qətiyyəti döyüşçünün qələbə istəyi olub. Hər əsgər Qələbənin əsgəri olmaq üçün döyüşürdü. Döyüşlər səngiyəndə döyüşçülərin dediyi kəlmələrin hər birini qələbə andı bilirdik. Qələbə andı içənlərimiz torpaqlarımızı işğaldan azad etdi. Bu qələbə erməni işğalını sonlandırdı. Ermənistan da, onun havadarları da gördü ki, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan Ordusu bundan sonra da ərazi bütövlüyünü bu qətiyyətlə, bu sədaqətlə qoruyacaq...

Şuşa uğrunda döyüşləri ictimaiyyət ifadəsi mümkün olmayan həyəcanlarla izlədi. Müxtəlif informasiyalar dolaşıqlığında xalq Müdafiə Nazirliyinin informasiyalarına inandı.

Şuşanın işğaldan azad edilməsi ictimaiyyətin görünməmiş coşqusu ilə yaşanıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də xalqa müraciətində dedi: "...Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq". Bu kəlmələr hamımızın ürəyini dağa döndərdi. Ölkə başçısının şəhidlərimizə xitabən dediyi "... Biz bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır" kəlmələri şəhidlərimizin ruhuna gözaydınlığı bildik.

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Təsis edildiyi vaxtdan bəri bu gün ən gözəl ovqatla qarşılanacaq. Mən Azərbaycan gəncliyinin bir nümayəndəsi kimi dünya azərbaycanlılarını Həmrəylik Günü, Yeni il bayramı və Zəfər ili münasibətilə təbrik edirəm...

**Gülsərə HÜSEYNOVA,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının adyunktu**